**Azərbaycan Respublikası**
**Mədəniyyət Nazirliyinin**

**23 iyul 2018-ci il tarixli**
**58 nömrəli əmri ilə**
**təsdiq edilmişdir**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sistemində fəaliyyət göstərən uşaq musiqi, incəsənət, rəssamlıq məktəb və mərkəzlərinə pedaqoji kadrların işə qəbulu üzrə V müsabiqənin**

**QAYDALARI**

1. Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin Nümunəvi Əsasnaməsinə uyğun olaraq məktəblərə pedaqoji kadrların işə qəbulu mərkəzləşdirilmiş qaydada müsabiqə yolu ilə müvafiq komissiyanın qərarı əsasında həyata keçirilir.
2. Uşaq musiqi, incəsənət, rəssamlıq məktəb və mərkəzlərinə 2018/2019-cu tədris ili üçün ixtisaslı pedaqoji kadrların işə qəbulu üzrə müsabiqə Mədəniyyət Nazirliyinin rəsmi İnternet saytında və Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərinin tədris portalında elan vasitəsilə yerləşdirilmiş pedaqoji kadrlara tələbat cədvəlinə əsasən aparılır.
3. Məktəblər üzrə pedaqoji kadrlara dair tələbat verilərkən və yerli mədəniyyət idarələri ilə razılaşdırılarkən, məktəbdə həmin ixtisaslar üzrə işləyən müəllimlərin sayı və təhsil səviyyələri, hər bir müəllimə düşən dərs yükünün mövcud normalara uyğunluğu, tələbatın verilməsinin zəruriliyi və s. regional idarələr və məktəb rəhbərliyi tərəfindən nəzərə alınmalıdır. Vakansiyaya çıxarılan hər bir yer əsaslandırılmalıdır. Hər hansı məktəb üzrə əsaslandırılmamış tələbat verildikdə müsabiqə komissiyası həmin yerin müsabiqəyə çıxarılmaması hüququna malikdir.
4. Bu qaydalar məktəbə işə qəbul olmaq istəyən yeni əvəzçi müəllimlərə və iş yerini dəyişmək istəyən müəllimlərə də şamil olunur.
5. Pedaqoji kadrların işə qəbulu üzrə müsabiqə nazirliyin müvafiq əmri ilə təsdiq olunmuş müsabiqə komissiyası tərəfindən xüsusi qrafik üzrə Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbində keçirilir (Bakı şəhəri, Nərimanov rayonu, Heydər Əliyev prospekti, 67) tel.:(012) 436 80 96; (012) 436 74 18; (012) 566-98-97. elektron poçt ünvanı: *ixtisas.merkez@mail.ru* ).
6. Pedaqoji kadrların işə qəbulu üzrə müsabiqə 2 mərhələdən ibarətdir:
   I mərhələ: 15-24 avqust 2018-ci il tarixində - elektron ərizələrin qəbulu və təhlili;
   II mərhələ: 28 avqust-11 sentyabr 2018-ci il tarixində - müsahibə
7. Müsabiqədə yalnız ali və orta ixtisas təhsili müəssisələrini müvafiq ixtisaslar üzrə bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom) almış və ya xarici ölkədə aldığı təhsil sənədi Azərbaycan Respublikası Təhsil Nazirliyində tanınmış Azərbaycan Respublikasının vətəndaşı olan şəxslər iştirak edə bilərlər. 2018-ci ilin məzunlarına diplom və diploma əlavə (qiymət cədvəli) müsahibə başlanan tarixə verilməyibsə, onlar bitirdikləri ixtisas tam və dəqiq göstərilməklə müvafiq arayış təqdim etməlidirlər.
8. Ali ixtisas təhsilli mütəxəssislər tələbatda orta ixtisas təhsili kimi göstərilən vakant yerlərə də sənədlərini verə bilərlər.
9. Musiqi (rəssamlıq, rəqs) ixtisasları üzrə əyani formada təhsil almaq məqsədilə işdən azad olunan müəllim təhsilini başa vurduqdan sonra öz işlədiyi məktəbə ixtisası üzrə müsabiqədənkənar işə qaytarıla bilər.

10. İxtisas təhsili olan, lakin müsabiqə dövründə əyani formada təhsil alan (ali təhsil, ikinci təhsil və s.) namizədlərin müraciətlərinə baxılmır.
11. "Təsviri incəsənət müəllimliyi" və "Musiqi müəllimliyi" ixtisasları "Mədəniyyət və incəsənət ixtisasları qrupu"na deyil, "Təhsil ixtisasları qrupu"na aid olduğundan bu ixtisaslar üzrə mütəxəssislərin müraciətlərinə baxılmır.
12. Məhkəmənin qərarına əsasən, yaxud sağlamlığı ilə əlaqədar pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslər müsabiqəyə buraxılmır.
13. İnzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar pedaqoji işdən kənarlaşdırılmış şəxslərin pedaqoji işə qaytarılması məsələsinə mövcud qanunvericilik və bu Qaydalar əsasında baxılır.
14. Müsabiqənin I mərhələsində namizədin müsabiqə komissiyasının katibliyinin elektron poçt ünvanına (*ixtisas.merkez@mail.ru*) göndərilən elektron ərizəsində qeyd etdiyi məlumatlar yoxlanılır. Elektron ərizədə qeyd edilən məlumatların düzgünlüyünə və tam olmasına görə ərizəçi məsuliyyət daşıyır.
15. Müsabiqənin II mərhələsində (müsahibə) namizədin təhsilini başa vurduğu ixtisas üzrə təhsil proqramları, habelə uşaq musiqi, incəsənət, rəssamlıq məktəb və mərkəzlərində tədris edilən müvafiq proqramlar üzrə peşəkar kompetensiyaları (praktiki ifa, şifahi nəzəri və məntiqə dair suallar), habelə şəxsi keyfiyyətləri və mədəniyyət sahəsi üzrə ümumu dünyagörüşü yoxlanılır. Müvafiq ədəbiyyatla http://music.mctgov.az/az/page/356/Tedris-vesaitleri internet saytından tanış olmaq mümkündür.
16. Hər hansı bir ixtisas üzrə bir vakant yerə iki və daha artıq sayda eyni bal toplamış namizəd olduqda, namizədin elektron ərizəsindəki göstəricilər araşdırılmaqla müvafiq qərar qəbul edilir.
17. Müsahibəyə xüsusi qrafik üzrə dəvət olunan şəxslər aşağıda göstərilən sənədləri və elektron ərizəsində qeyd olunan məlumatları təsdiq edən digər sənədlərini (əslini/ və ya surətini) müsahibə günü müsabiqə komissiyasının katibliyinə təqdim etməlidir:

- *diplom(lar) (əsli və surətini) və ona əlavə olunan qiymət cədvəlini (əsli və surətini);*
- *xaricdə təhsil alanlar diplomla yanaşı təhsil sənədlərinin tanınmasına dair şəhadətnamə (Azərbaycan Respublikasının Təhsil Nazirliyindən alınır)*
- *şəxsiyyət vəsiqəsini (əsli və surətini);*
- *sağlamlıq haqqında arayışı ("arayışın təqdim edildiyi yer" qrafasında -"Mədəniyyət Nazirliyinin müsabiqə komissiyasına" sözləri yazılmalıdır). İşləyən şəxslər isə işlədiyi yerdən tibbi kartlarının müəssisə tərəfindən təsdiq olunmuş surətini .*
- *əmək kitabçasının (əgər namizəd işləyirsə) müəssisənin məsul işçisi tərəfindən imza və möhürlə təsdiqlənmiş surətini ;*
- *-əmək müqaviləsinin bağlanmasına dair əmək müqaviləsi bildirişinin surətini (işləyənlər );*
- *əmək kitabçasını və surətini (iş stajı olanlar və müsabiqə gününə işləməyənlər)*

18. Müsahibəyə dəvət olunan şəxslər öz musiqi alətlərini gətirməlidirlər (piano musiqi aləti ilə iştirakçılar təmin olunacaq) .
19. Müsabiqənin hər hansı mərhələsində namizədin elektron ərizədəki məlumatları düzgün və tam doldurmadığı və ya müsahibə proqramının meyarlarına uyğun olmadığı müəyyən edilərsə onun nəticələri ləğv edilir.
20. Hər hansı səbəbə görə təyin olunmuş vaxtda müsahibədə iştirak etməyənlər üçün təkrar müsahibə keçirilmir.
21. İşə qəbul üzrə müsabiqənin nəticələrinə görə hər hansı ixtisas üzrə boş qalan yerlər üçün əlavə yerləşdirmə keçirilir. Bir vakant yerə bir neçə namizəd müsabiqədən keçdiyi halda, işə qəbul oluna bilməyən namizədlər boş qalmış digər vakant yerlərə əlavə yerləşdirmədə iştirak edə bilərlər.

22. İşə qəbul üzrə müsabiqədə uğur qazanaraq vakant yer tutmuş hər hansı bir namizəd öz yerindən imtina etdiyi halda, onun əlavə yerləşdirmədə iştirakı təmin olunmur.
23. Müsabiqənin nəticələri ilə bağlı apellyasiya şikayətinə bütün ixtisaslar üzrə müsabiqə başa çatdıqdan sonra üç iş günü ərzində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində baxılır.
24. Müsabiqənin yekun nəticələri nazirliyin rəsmi internet saytında yerləşdirilir və aidiyyəti materiallar müvafiq yerli mədəniyyət idarələrinə və təhsil müəssisələrinə göndərilir. Nazirliyin müvafiq əmri əsasında təhsil müəssisəsinin rəhbəri ilə müəllim arasında əmək müqaviləsi bağlanılır və əmrlə rəsmiləşdirilir.
25. Pedaqoji kadrların işə qəbulu ilə əlaqədar bu Qaydalara riayət edilməsi və kadrlarla iş sahəsində yol verilən nöqsanlara görə müvafiq yerli mədəniyyət idarələrinin və təhsil müəssisələrinin rəhbərləri, habelə müsabiqə komissiyasının üzvləri qanunvericiliyə müvafiq olaraq məsuliyyət daşıyırlar.

***************